TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

---

## SOSİAL, MƏDƏNİ VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSIYASI

## ONUNCU İCLAS

## 2 mart 2023-cü il, Bişkek

## TÖVSİYƏ QƏRARI

## “Keyfiyyətli təhsil üzrə BMT-nin Dayanıqlı İnkişaf Məqsədinə nail olunması üçün post-pandemiya şəraitində transsərhəd təhsilin inkişafı istiqamətində TÜRKPA-nın üzv dövlətləri arasında əməkdaşlıq”

Qlobal dirçəliş və bütün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün təhsilin vacib olduğunu **nəzərə alaraq,**

Təhsilin təməl hüquq olduğunu və onun möhkəm, dinc və davamlı cəmiyyətlərin əsasını təşkil etdiyini **nəzərə alaraq,**

Təhsilin “yaşıl keçid” in əsası və katalizatoru olduğunu **qeyd edərək,**

TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində irəliləyişlərin davam etdirilməsinin və daha da təşviq edilməsinin **vacibliyini vurğulayaraq,**

Adekvat təhsilin iqtisadi və sosial tərəqqi naminə elmin, texnologiyanın və insan resurslarının inkişafı və istifadəsi üçün əvəzsiz element olduğuna **əmin olaraq,**

Təhsildə kişilər və qadınlar arasında fərqin davam etməsindən **dərindən narahat olaraq,**

Fiziki və maddi imkanlarından asılı olmayaraq bütün insanlar üçün təhsilin əlçatanlığının **vacibliyini vurğulayaraq,**

TÜRKPA üzv dövlətlərinə tövsiyə edir:

- Türk dövlətlərinin təhsil sisteminin dünyanın qabaqcıl və aparıcı təhsil sistemləri ilə inteqrasiyası üçün Boloniya prosesinə tam qoşulmaq və gələcəkdə Avropa Kredit Transfer Sisteminə (AKTS) inteqrasiyası;
- ali təhsil təşkilatlarının və professor-müəllim heyətinin həddən artıq yoxlanılmasının qarşısını almaq üçün təhsil sistemində islahatlar üzərində fəaliyyət göstərilməsi;
- müəllimlərin əldə etdikləri təcrübəni öz ölkələri ilə paylaşması üçün təcrübə mübadiləsi və təlimin keyfiyyət sisteminin tənzimlənməsi;
- hərəkətdə çətinlik çəkən insanlar üçün təhsilə əlçatanlıq, ətraf mühitin yaşıllaşdırılması, rəqəmsal transformasiyaya dəstək və s. kimi bir neçə problemi eyni vaxtda həll edən davamlı onlayn təhsil sisteminin işlənib hazırlanması;
- pedaqoji kadrların öz vəzifələrini yerinə yetirmələri üçün onlara müvafiq şərait və mühitin yaradılması;
- proses üzvlərinin və iştirakçılarının sayının artırılması ilə TÜRKÜNİB və Orhun Prosesi vasitəsilə TÜRKPA regionunun təhsil potensialının genişləndirilməsi.